**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN MAARİFÇİLƏRİNİN YARADICILIĞINDA DİNİ-MƏDƏNİ DƏYƏRLƏR VƏ MÜASİRLİK

İxtisas: 7214.01 – Dinin tarixi və fəlsəfəsi

Elm sahəsi: Fəlsəfə

İddiaçı: **Sabir Elmurad oğlu Behbudov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2024**

Dissertasiya işi AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun "İslam fəlsəfəsi" şöbəsində yerinə yetrilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | Fəlsəfə elmlər doktoru, dosent<br>**Aydın Arif oğlu Əlizadə** |
| Rəsmi opponentlər: | Fəlsəfə elmlər doktoru, professor<br>**Əyyub Sevdim oğlu Kərimov** |
| | Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent<br>**Şölət Əlövsət oğlu Zeynalov** |
| | Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent<br>**Elnur Kərim oğlu Mustafayev** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan İlahiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 4.03 Birdəfəlik Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | Fəlsəfə elmləri doktoru, dosent<br>**Zəkiyyə Ağbaba qızı Əbilova** |
| Dissertasiya şurasının elmi katibi: | İlahiyyat üzrə fəlsəfə doktoru, dosent<br>**Məmmədəli Allahverdi oğlu Babaşlı** |
| Elmi seminarın sədri: | Fəlsəfə elmləri doktoru, professor<br>**Sakit Yəhya oğlu Hüseynov** |

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Maarifçilik fəlsəfəsi Yeni dövr Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixinin son dərəcədə mürəkkəb və ziddiyyətli mərhələsini təşkil edir. Azərbaycanda XIX əsrdə formalaşan maarifçilik fəlsəfəsi cəmiyyətin bütün sosial səviyyələrini əhatə etməklə onun gələcək inkişafı üçün zəmin yaratmışdır. XIX əsrdə ədəbi, sosial-siyasi hadisə olmaqla yanaşı formalaşan maarifçilik həm də məfkurəvi hərəkat kimi Azərbaycan cəmiyyətinin gələcək inkişaf istiqamətlərinin müəyyən olunmasında mühüm istiqamət olmuşdur. Feodalizmdən kapitalizmə keçid dövrünün məfkurəvi, ideoloji hərəkatı olan maarifçilik fəlsəfəsi aydındır ki, cəmiyyətin həyatına yeni çalarlar və dəyişikliklər gətirmədən inkişaf edə və Azərbaycan cəmiyyətində özünəməxsus inkişaf xətti tuta bilməzdi. Bu mənada Azərbaycan maarifçilərinin yaradıcılığında dini-mədəni dəyərlərin müasirlik baxımından tədqiqi olduqca aktualdır. Çünki SSRİ tərkibində yaşadığımız 70 illik bir dönəmdə dövrün tələbləri baxımından sadalanan tədqiqatlarda maarifçilik fəlsəfəsi kifayət qədər tədqiqata cəlb edilsə də, onun əsas komponentlərindən olan dini-mənəvi dəyərlər dövrün aksioloji tələbləri baxımından fərqli mənada araşdırılmış, çox vaxt hakim ideoloji istiqamət olan marksizmin əsas müddəalarına uyğunlaşdırılmış aksioloji yanaşmalara üstünlük verilmişdir.

Avropa və Rusiya maarifçiliyindən tarixən gec formalaşmasına baxmayaraq onların irəli sürdüyü bir çox ideyaları mənimsəyən və inkişaf etdirən milli maarifçiliyimizin nümayəndələri heç də Avropa maarifçilərini təkrar etməklə kifayətlənməmiş, maarifçilik fəlsəfəmizə özünəməxsus çalarlar da əlavə etmiş və onu daha da zənginləşdirmişlər. Bu fərqli xüsusiyyətlərdən biri də Azərbaycan maarifçilərinin böyük əksəriyyətinin avropa maarifçilərindən fərqli olaraq dini, mədəni-mənəvi dəyərlərə hörmətlə yanaşması və onların tədqiqinə mühüm yer verməsidir. Bu mənada spesifik Azərbaycan

maarifçilərinin yaradıcılığının fəlsəfi kontekstdən tədqqiqi aktuallıq kəsb edir.

Azərbaycan maarifçiliyinin təşəkkülü və inkişafında rus və Avropa maarifçilərinin kifayət qədər rolu olmuşdur. Lakin Azərbaycan maarifçiliyi təqlid yolu ilə deyil, xalqın azadlıq hərəkatı ilə bağlı olaraq öz milli və ictimai zəminində yetişmiş və inkişaf etmişdir.

“Maarifçiliyin bir milli hərəkat və ya cərəyan kimi formalaşması XIX yüzilliyin tarixi nailiyyətidir. Bu ideya rüşeym, ünsür halında hələ XIX əsrin birinci rübündən etibarən yaranmağa başlamış və müəyyən qədər genişlənmişdir”. Məhz bu dövrdən başlayaraq kommunikasiya və iqtisadi, mədəni mübadilələrin inkişafı, maddi və intellektual mühitin transformasiyası nəticəsində yeni Azərbaycan mədəniyyəti yaranır.

Xalqımızın Ümummilli lideri Heydər Əliyev müstəqil dövlətimizin ideoloji təminatı kimi milli ideologiyanın yaradılmasının proqram müddəalarını irəli sürərkən çoxəsrlik tarixə malik milli-mənəvi dəyərlərimizdən istifadə olunmasının zəruriliyini dönə-dönə qeyd etmişdir. Bu baxımdan vaxtilə milli oyanış, milli-mədəni tərəqqi uğrunda mübarizəyə qalxmış Azərbaycan maarifçilərinin ideya-mənəvi irsi qiymətli mənbədir. Belə ki, Azərbaycan maarifçiləri hər şeydən əvvəl xalqımızın özünəməxsusluğunu əks etdirərək onun mədəni, sosial-siyasi və fəlsəfi fikir təcrübəsini, milli mənlik şüurunun və özünüdərkinin misilsiz xəzinəsidir. Ulu öndər H.Əliyev haqlı olaraq Azərbaycan maarifçiliyini milli dövlətçilik düşüncəsinin əsas mənbəyi hesab edirdi: *“XX əsrdə bizim qazandığımız uğurların, o cümlədən müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə xüsusilə XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır. Bu qaynaqlar həm ayrı-ayrı görkəmli şəxsiyyətlərin, Abbasqulu Ağa Bakıxanov və Mirzə Kazım bəy kimi nadir insanların çox uğurlu yaradıcılıq fəaliyyətində öz əksini*

*tapmış, həm də birbaşa milli maarifçilik ideyalarının gerçəkləşməsilə bağlı olmuşdur”*[1].

Milli müstəqil dövlətçiliyimizin olduğu hazırki şəraitdə fəlsəfi fikir tariximizin mühüm istiqamətini təşkil edən maarifçilik fəlsəfəsinin obyektiv elmi meyarlar əsasında tədqiqi üçün geniş imkanlar açılmışdır. Bu isə müstəqil dövlətimizin meydana gəlməsinin fəlsəfi və tarixi köklərinə dərindən nəzər salmaq baxımından olduqca əhəmiyyətlidir.

Araşdırmada maarifçilik məfkurəsinin gündəmə gətirdiyi kateqorial anlayış aparatı müasirlik kontekstində nəzərdən keçirilir. Maarifçilik ideyalarının xarakteri səciyyələndirir, müasir dövrdə ölkənin və xalqın həyatında nə qədər aktual və əhəmiyyətli olmasını müəyyənləşdirir.

Ədəbi-bədii, publisistik və fəlsəfi mənbələrin təhlili göstərir ki, Azərbaycan maarifçiliyinin dəyərlər sisteminin hüdudları və konturları kifayət qədər tam müəyyənləşdirilməmişdir, ona görə də onun ideoloji mahiyyəti haqqında bütöv təsəvvürlərin formalaşdırılmasında müəyyən çətinliklər yaranır. Maarifçilərimizin zəngin ideya irsi və mənəvi-dini dəyərlər sisteminin sosial mahiyyətini tarixi kontekstdən yenidən dəyərləndirmək və araşdırmaq bu mənada olduqca aktualdır.

Mövzunun işlənmə dərəcəsinə gəlincə qeyd olunmalıdır ki, Azərbaycan maarifçiliyi ictimai və fəlsəfi fikir tarixi müstəvisində kifayət qədər tədqiq olunmuşdur. Bizim araşdırmamızda maarifçilərin yaradıcılığında mənəvi-dini dəyərlər tarixilik və müasirlik baxımından tədqiqata cəlb edilmiş və müəllifin problemlə bağlı gəldiyi qənaətlər əsaslandırılmışdır.

Maarifçilik hərəkatı və ya maarifçilik fəlsəfəsi Sovet Azərbaycanında fəlsəfi fikrin sevimli tədqiqat obyekti olmuş, elmi araşdırmaların və dərsliklərin əksəriyyətində maarifçilərin “inqilabçı”, “demokrat”, “ateist” istiqamətli nümayəndələri haqqında ətraflı məlumatlar mütamadi olaraq verilmişdir. Bu zaman faktlar bəzən təhrif edilmiş şəkildə təqdim olunur, mətnlər ideoloji

[1] Əliyev, Heydər. Dünya azərbaycanlılarının I Qurultayında nitq // –Bakı: Dirçəliş – XIX əsr, –2003. №70, –s.2.

istiqamətə uyğunlaşdırılır və marksizim-leninizm ideyaları kontekstində yozulurdu, ya da rus və Avropa maarifçiliyi ilə tipoloji-müqayisəli kontekstdə öyrənilirdi. Xüsusən Azərbaycan maarifçilərinin dinə, dini və mənəvi dəyərlərə münasibəti birtərəfli, yanlış, təhrif olunmuş şəkildə təqdim edilirdi ki, bu da öz növbəsində Azərbaycan maarifçiliyinin özünəməxsus içtimai, mədəni hadisə kimi qavranılmasını çətinləşdirirdi.

Yuxarıda qeyd edildiyi kimi, XIX əsr Azərbaycan maarifçiliyin intellektual və mədəni kontekstinin dərki Avropa və Rusiya maarifçi filosoflarının əsərlərini təhlil etmədən mümkünsüz olardı. Avropa maarifçilərinin (Volter, D.Didro, J.J.Russo, Şeftsberi və b.), xüsusən Azərbaycan maarifçilərinin (M.Ş.Vazeh, M.Kazımbəy, A.Bakıxanov, M.F.Axundzadə, H.Zərdabi, C.Əfqani və b.) əsərləri araşdırmamız üçün dəyərli mənbələr kimi əhəmiyyət kəsb edir.

Avropa maarifçiliyi zəminində formalaşan milli maarifçiliyimiz özünəməxsus çalarlarla yeni inkişaf yolunu tutaraq formalaşmış və sonradan milli müstəqil dövlətimizin ideya əsaslarının yaranmasında həlledici istiqamət olmuşdur. Maarifçilik fəlsəfəsinin araşdırılmasında rolu olan tədqiqatçıları da əsasən iki qrupa ayırmaq olar. Bunlardan birincisi marifçilik fəlsəfəsini, maarifçilərimizin yaradıcılığındakı milli-mənəvi və dini dəyərləri professional formada tədqiq edən tədqiqatçılardır. İkinci qrup tədqiqatlara isə maarifçilərin fəaliyyətini və yaradıcılığını Azərbaycan publisistikasında araşdıran tədqiqatçılar aid etmək olar. Onlar əsasən maarifçilərin ümumi prinsipial baxışlarını araşdırmaqla kifayətlənmişlər.

Dissertasiyada Azərbaycan maarifçilik fəlsəfəsinin problemləri əsasən konkret mütəfəkkirlərin baxışlarına, dünyagörüşünə həsr olunmuş araşdırmalarda nəzərdən keçirilmişdir. Maarifçilik dövrü ilə bağlı ümumiləşdirici fəlsəfi tədqiqat işləri də yazılmışdır ki, bu da araşdırmamızın metodoloji istiqamətini müəyyənləşdirməyə imkan vermişdir.

Araşdırmalar göstərir ki, maarifçilərimizdən Mirzə Fətəli Axundzadə, Abbasqulu ağa Bakıxanov və Həsənbəy Zərdabiyə həsr

olunmuş tədqiqatlar sayca üstünlük təşkil edir. Məhz bu mütəfəkkirlərin fəaliyyəti və yaradıcılığı əsasında maarifçiliyin ideyalar kompleksi dərk olunur, onların dinə münasibəti, müsəlman cəmiyyətinin tərəqqisi, fikir və söz azadlığı ilə bağlı baxışları müfəssəl nəzərdən keçirilir. H.Hüseynovun "XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən" adlı klassik araşdırmasında maarifçilərin insan və cəmiyyət, əxlaq, elm və tərbiyə haqqında görüşləri sistemləşdirilir. Akademik F.Köçərlinin "M.F.Axundovun dünyagörüşü" monoqrafiyasında böyük maarifçinin mürəkkəb və ziddiyyətli baxışlar sistemi etika, din, estetika müstəvilərində təhlil edilir. Ş.Məmmədovun "Mirzə Fətəli Axundov" (rus dilində) monoqrafiyasında maarifçi-demokratın fəlsəfi sistemi əsaslandırılır. İ.Rüstəmovun "Həsən bəy Zərdabi" monoqrafiyasında "Əkinçi" qəzetinin materialları əsasında görkəmli şəxsiyyətin həyat və fəaliyyəti maarifçilik ideologiyası kontekstində işıqlandırılır.

Ə.Əhmədovun "Azərbaycan maarifçiliyi fəlsəfəsi" adlı monoqrafiyasında ilk mənbələr əsasında Azərbaycan maarifçiliyinin mənşəyi və mahiyyəti, əsas inkişaf mərhələləri, özünəməxsus xüsusiyyətləri, radikal, liberal və inqilabi-demokratik qanadları müqayisəli təhlil edilir.

Müasir Azərbaycan fəlsəfi fikrində maarifçilik hərakatına bu gün də xüsusi diqqət göstərilir. Bu sahədə yeni-yeni tədqiqatlar aparılaraq maarifçilik fəlsəfəsi müxtəlif rakurslardan araşdırılır. Bu mənada N.Əfəndiyeva, Ə.Orucov, O.Mehdizadə, S.Əliyeva və başqalarının dissertasiya işləri bunun əyani sübutudur. Mövzu ilə əlaqədar R.Əhmədovun "Əkinçi" və milli maarifçilik", "Azərbaycan fəlsəfi və ictimai-siyasi fikir tarixində demokratik dövlətçilik ideologiyasının formalaşması (fəlsəfə tarixi kontekstində)" mövzusunda doktorluq dissertasiyası, N.İsayevin "Azərbaycan maarifçiliyinin fəlsəfi dünyagörüşü ideyaları", Ə.Orucovun "XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində milli özünüdərk problemi" və başqa bir neçə araşdırmanı qeyd edə bilərik. Bu təqiqatlarda milli ictimai-siyasi məfkurənin formalaşmasına maarifçilik fəlsəfəsinin təsirindən bəhs edilir, maraqlı ümumiləşdirmələr aparılır.

Müstəqillik dövründə Azərbaycan maarifçiliyi XIX əsr ictimai-siyasi, ədəbi-mədəni, fəlsəfi fikir tariximizin vacib mərhələsi kimi fərqli nəzəri-metodoloji aspektlərdə tədqiq olunmağa başlanmışdır. Hal-hazırda dini və mədəni dəyərlər Azərbaycan maarifçiliyinin sosiomədəni gerçəkliyini ifadə edir. Bu gerçəklikdə XIX əsr Azərbaycan cəmiyyətinin və insanının obrazını obyektiv olaraq tədqiq etmək olduqca zəruridir. Maarifçilik fəlsəfəsinin dəyərlər sistemi də məhz bu zərurəti özündə ehtiva edir.

Dini və mədəni dəyərlər Azərbaycan maarifçiliyinin ümumi ideya paradiqması çərçivəsində təhlil edilə bilər. Ona görə də həmin problemin qoyuluşu ilk növbədə fəlsəfədə "dəyər" anlayışının şərhini, müvafiq araşdırmalara müraciət olunmasını şərtləndirir. Dəyər problemi fəlsəfə elmi çərçivəsində yaranmış və yeni bir sahənin – aksiologiyanın başlanğıcını qoymuşdur. *"Dəyər sferası mədəniyyət sferası ilə sıx bağlıdır. Dəyərlər mədəniyyətin özüdür, onsuz mədəniyyət dağılar"*[2]

İstənilən cəmiyyətin mənəvi durumunun ən vacib göstəricilərindən biri də müxtəlifyönlü sosiomədəni təsirlərin və aparıcı fəlsəfi konsepsiyaların nəticəsi müvafiq dəyərlər sistemi olur. Müasir dünyada qloballaşmanın gətirdiyi fəsadlar ənənəvi dini-mədəni dəyərlərə təsirsiz ötüşmür. Yeni "dəyər"lər sürətlə cəmiyyətdə yer alır. Ona görə də "dəyər" anlayışının araşdırmaya cəlb olunması, Azərbaycan maarifçilərinin irsinin bu kontekstdə nəzərdən keçirilməsi əhəmiyyət daşıyır.

XX əsrin sonu – XXI əsrin əvvəlləri yalnız həyat tempinin sürətlənməsi ilə deyil, həm də böhran situasiyalarının dərinləşdirilməsi ilə xarakterizə olunur. Azərbaycan Respublikasında aparılan iqtisadi, ictimai-siyasi islahatlar fonunda dini-mənəvi dəyərlərin transformasiyası, yaxud deformasiyası baş verir ki, bu da maarifçiliyin dəyərlər sisteminin öyrənilməsini aktuallaşdırır.

---

[2] Столович, Л. Философия. Эстетика.Смех /Л.Столович. –С.–Петербург-Тарту, –1999. –s.106.

Təqiqat işində Azərbaycan maarifçiliyinin dini və mədəni dəyərlər sistemi maarifçilərin dünyagörüşü və ideyaları kontekstində nəzərdən keçirilir. Dini-mədəni dəyərlərlə bağlı problemlər insan və cəmiyyətlə məşğul olan hər bir elm sahəsi üçün vacib və aktual sayılır. Azərbaycan maarifçiliyinin dini və mədəni dəyərləri milli mədəniyyətin tarixi inkişaf dinamikasına təsir göstərmiş, vətəndaş cəmiyyətinin formalaşmasında mühüm rol oynamışdır. Azərbaycan maarifçiliyinin mürəkkəb və təzadlı mənzərəsi, müasir dövrdə aktuallıq kəsb edən məqamları yeni metodoloji yanaşmalar tələb edir. Bu baxımdan Azərbaycan maarifçilərinin dəyər sisteminin müasir nəzəri-metodoloji aspektdə təhlilinə ehtiyac duyulur. Maarifçiliyin dəyərlər sisteminin təşəkkülü və inkişafı, ictimai-siyasi fikirimizə, dövlətçilik və müstəqillik məfkurəsinə təsiri ilə bağlı məsələlərin öyrənilməsi tədqiqatın aktuallığını şərtləndirən əsas amillərdəndir.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqat işinin obyektini Azərbaycan maarifçilərinin ədəbi-bədii və fəlsəfi irsi təşkil edir.

Tədqiqatın predmetini isə maarifçiliyin dini və mədəni dəyərləri, onların müasir dövrdə fəlsəfi dərki təşkil edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqat işinin qarşısında duran əsas məqsəd Azərbaycan maarifçilərinin yaradıcılığında dini-mədəni dəyərlərin müasirlik baxımından kompleks-struktur təhlili əsasında fəlsəfi fikir tariximizlə, müasir dövrdəki inkişafımızla səsləşən cəhətlərini üzə çıxarmaqdan ibarətdir. Bu məqsədlə aşağıdakı vəzifələrin yerinə yetirilməsi diqqət mərkəzində saxlanılmışdır:

- Azərbaycan maarifçiliyində “dəyər” anlayışının mahiyyətini müəyyən etmək;
- XIX əsr Azərbaycan maarifçilərinin ədəbi-bədii və fəlsəfi əsərləri əsasında mədəni dəyərlər haqqında ümumiləşdirici qənaətlər irəli sürmək;
- ağıl, bilik və tərbiyə kultunun maarifçiliyin vacib dəyəri kimi təhlilə cəlb etmək;
- maarifçi mütəfəkkirlərimizin irsində azadlıq konseptinin dəyərlər sistemi ilə əlaqəsini nəzərdən keçirmək;

- din və dil problemini XIX əsr Azərbaycan cəmiyətinin mədəni dəyərləri kontekstində tədqiq etmək;

- islam dini ilə bağlı görüşləri Azərbaycan maarifçilik ideologiyasının təməl istiqaməti kimi nəzərdən keçirmək;

- vətandaş cəmiyyətinin formalaşmasında maarifçilik ideyalarının və fəlsəfəsinin rolunu müəyyənləşdirmək;

- maarifçilərin yaradıcılığında insanın mənəvi inkişaf problemlərinin din və əxlaq məsələləri ilə qarşılıqlı əlaqəsinin təhlilini vermək.

- Azərbaycan maarifçilərinin multikulturalizmlə səsləşən cəhətlərini əsaslandırmaq;

**Tədqiqatın metodları:** Dissertasiya işində müəllif tədqiq olunan problemlə bağlı Azərbaycan maarifçilərinin elmi-fəlsəfi, ədəbi düşüncələrindən və onların gəldiyi qənaətlərdən yetərincə faydalanmışdır. Tədqiqatın nəzəri əsaslarını maarifçi mütəfəkkirlərimizin dini-mədəni dəyərlər haqqında baxışları və onlara münasibəti təşkil edir. Araşdırma zamanı analiz və sintez, tarixi-müqayisəli və sistemli təhlil, deduksiya və induksiya metodlarından geniş istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Azərbaycan Maarifçiliyinin özünəməxsusluğu və onun Qərb maarifçiliyi ilə fərqli xüsusiyyətlərinin açıqlanması;

- Azərbaycan maarifçiliyinin dini-mədəni konteksdən sistemli olaraq tədqiqata cəlb olunması;

- Azərbaycan maarifçilərinin dini baxışlarının müəyyənləşdirilməsi;

- Azadlıq probleminin maarifçiliyinin təməl prinsipi kimi səciyyələndirilməsi;

- Azərbaycan maarifçiliyində tərəqqi ideyasının azadlıq ideyası ilə qarşılıqlı əlaqələndirilməsi və tədqiqi;

- M.F.Axundzadə və Ş.C.Əfqani yaradıcılığı əsasında fəlsəfənin cəmiyyətin inkişafını şərtləndirən dəyərlərdən biri olması;

- Maarifçilik dəyərlərinin müasir vətəndaş cəmiyyətinin formalaşmasında aktuallığının əsaslandırılması;

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi hər şeydən əvvəl mövzunun seçimindən, problemin qoyuluşundan, işin məqsəd və vəzifələrindn irəli gəlir. Elmi işin yeniliyi aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- XIX əsr Azərbaycan maarifçiliyi ədəbi-bədii deyil, həm də ideoloji düşüncə sistemi kimi, dini və mədəni dəyərlər isə sistemli olaraq nəzərdən keçirilir.

- Azərbaycan maarifçiliyinin dinə münasibəti, dini baxışlar dəyər kateqoriyası kontekstində araşdırmaya cəlb edilir.

- Tədqiqatda Azərbaycan maarifçilk fəlsəfəsi mədəni dəyər kimi səciyyələndirilir. M.F.Axundzadənin və C.Əfqaninin millətin mədəni inkişafında fəlsəfi fikrin vacibliyi haqqında mülahizələri təhlil edilir.

- Azərbaycan Respublikasında vətəndaş cəmiyyətinin təşəkkülündə maarifçiliyin dini-mədəni dəyərlərinin aktuallığı əsaslandırılır.

- müasir Azərbaycan cəmiyyətində multikultural prinsiplərin genişlənməsində maarifçilik ənənələrinin rolu müəyyənləşdirilir.

- dini və mədəni dəyərlərə maarifçiliyin ümumi ideya istiqamətləri çərçivəsində diqqət yetirilir ki, bu da aksioloji problemin qoyuluşunu metodoloji istiqamət kimi şərtləndirmişdir.

-Azərbaycan maarifçiliyinin dəyər sisteminin özünəməxsusluğu Avropa və Rus maarifçiliyi ilə müqayisəli təhlil əsasında səciyyələndirilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Araşdırma zamanı əldə edilən elmi nailiyyətlər Azərbaycan maarifçilərinin fəlsəfi və sosial-siyasi görüşlərini obyektiv şəkildə cəmiyyətə çatdırılması baxımından böyük elmi-nəzəri və praktik əhəmiyyət daşıyır. İş maarifçi mütəfəkkirlərimizin yaradıcılığında dini-mədəni dəyərlərin müasirlik baxımından sistemli və bütöv şəkildə tədqiqinə həsr olunduğundan bu sahədə gələcək tədqiqatlar üçün də müəyyən qədər zəmin rolunu oynaya bilər. Tədqiqat işinin praktiki əhəmiyyəti Azərbaycan maarifçilərinin yaradıcılığında olan dini-mənəvi dəyərlərin qarşılıqlı əlaqəsini elmi ictimaiyyətə çatdırmaqdan,

Azərbaycan maarifçiliyinin aksioloji sistem, ideoloji və mədəni hərəkat kimi öyrənilməsindən ibarətdir.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas məzmunu elmi məqalələrdə və konfrans materiallarında əksini tapmışdır. Dissertasiyanın mövzusu üzrə 13 elmi əsər müvafiq jurnallarda çap edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə edilən dövri elmi nəşrlərdə - xaricdə -2, daxildə 7 olmaqla ümumilikdə 9 məqalə və 1- xaricdə olmaqla 3-ü beynəlxalq və respublika elmi konfrans materiallarında tezisi çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun "İslam fəlsəfəsi" şöbəsində yerinə yetrilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə, 170 adda istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş 12 səhifə (21725işarə), I fəsil 42 səhifə (79739 işarə), II fəsil 30 səhifə (57682 işarə), III fəsil 29 səhifə (54336 işarə), nəticə 3 səhifə (5642 işarə) təşkil edir.

Dissertasiyanın ümumi həcmi 131 səhifədən (221121işarə) ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Azərbaycan maarifçiliyi ilk növbədə mütərəqqi ideyalar məfkurəsi, XIX əsr Azərbaycan cəmiyyətini düşündürən, öz ətrafında ziyalıları, qələm adamlarını birləşdirən bir ictimai və mədəni hərəkat idi.

Azərbaycanda maarifçilik məfkurəsinin təşəkkülündə rus və qismən də Avropa maarifçiliyinin rolu danılmazdır. Avropada olduğu kimi, Azərbaycanda maarifçilik mənəvi-ideoloji tərəqqidə əvvəlki epoxanın tükəndiyini – orta əsrlərin sonunun yetişdiyini xəbər vermək və eyni zamanda keçidi icra etmək üçün doğulmuşdu.

XIX əsrin ikinci yarısı Azərbaycanda ictimai-fəlsəfi fikrin inkişafında çox zəngin bir dövrdür. Bu dövrdə feodal-patriarxal münasibətlərə qarşı mübarizə geniş vüsət alır, elmə, maarifə, Avropa həyat tərzinə böyük maraq oyanır, həmin dövrün mühüm xarakterik xüsusiyyəti bir də bunda idi ki, ictimai şüurun radikal formaları cəmiyyətin inkişafında getdikcə daha fəal rol oynamağa başlayır.

Avropada, həm də Azərbaycanda hər bir mədəni-tarixi hərəkatın, fəlsəfi və bədii düşüncə cərəyanının ilkin istinad – müqayisə nöqtəsi kimi məhz maarifçilik dəyərləri götürülür.

Adından da göründüyü kimi, maarifçilik sisteminin əsas anlayışları ilk növbədə "maarif" konsepti ilə bağlıdır. Maarifçilərimiz inanırdılar ki, xalqın rifahı və sosial – mədəni varlığı məhz maarif, elm, təlim və tərbiyədən keçir. "Maarif" maarifçilik məfkurəsini səciyyələndirən əsas ideya konsepsiyasıdır və onun üç əsas hərəkətverici qüvvəsi var: məktəb, mətbuat və teatr.

Araşdırmalarda rast gəldiyimiz "Maarifçilik dövrü" anlayışının özü müəyyən suallar doğurur: ümumiyyətlə, Azərbaycanda "maarifçilik dövrü" konkret olaraq hansı zaman kəsimini əhatə edir? Tədqiqatçıların bəziləri Azərbaycan maarifçiliyin tarixini 1813-1828-ci il İran-Rusiya müharibələrindən sonrakı dövrlə başlayır, Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsi tarixindən başlamağı təklif edir.

Maarifçilik hərəkatı Azərbaycanda XIX əsrin birinci yarısında A.Bakıxanovdan başlansa da, bu hərəkat ilk növbədə M.F.Axundzadənin adı ilə bağlıdır, çünki onun timsalında Azərbaycan maarifçiliyində Şərq və Qərb dəyərləri toqquşur və qovuşur.

Azərbaycan maarifçiliyi ilk növbədə mütərəqqi ideyalar məfkurəsi, XIX əsr Azərbaycan cəmiyyətini düşündürən, öz ətrafında ziyalıları, qələm adamlarını birləşdirən bir ictimai və mədəni hərəkat idi.

XVIII əsr Avropa maarafçiliyi tarixə haqlı olaraq "filosoflar əsri" kimi düşmüşdür. Lokk, Şeftsberi, Berkli, Yum, Monteskyö, Volter, Didro, Russo, Holbax…

Maarifçilərin bir çoxu kapitalizmə keçid dövründə yaranmaqda olan burjuaziyanın ideoloqları missiyasını həyata keçirirdilər. Onları əsasən cəmiyyətin sosial yenidənqurma, siyasi hakimiyyət, iqtisadi münasibətlər, maddi və sosial bərabərsizlik məsələləri düşündürürdü.

Bundan başqa maarifçilər idrak, bəşər tarixinin mənası, insanın mahiyyəti və həyatdakı təyinatı, estetika, gözəlliyin təbiəti və incəsənətin inkişafının qanunauyğunluqları kimi problemlərə toxunmuşlar.

Azərbaycan maarifçilik hərəkatı Avropadan bir əsr sonra təşəkkül tapmışdır. Avropanın ucqarında yerləşən ölkənin ictimai, iqtisadi geriliyi, elmi-mədəni əlaqələrin zəruriliyi idi, digər səbəbi isə "**İran diskursu"nun** maarifçilərin ədəbi təcrübəsində üstün mövqeyi ilə bağlı idi.

Azərbaycan Maarifçiliyi çox çətin dönəmlərdən keçməli, ağır sosial və mədəni, siyasi maneələri aşmalı olmuşdur.

Bir tərəfdən, təsəvvüf-təriqət ənənəsinin və estetikasının güclü təsiri altında olan Azərbaycan ədəbiyyatı XIX əsrin ortalarından etibarən yeni dövrün bitkin ideologiyası ilə maarifçiliklə qarşı-qarşıya qalır.

XIX əsr Azərbaycan maarifçiliyi, bir yandan, Şərq-İslam etik dəyərlərini qoruyub saxlamağa, digər tərəfdən, Avropa mədəni dəyərlərini qəbul etməyə çalışırdı.

Əlbəttə, Avropa maarifçiliyindən fərqli olaraq, Azərbaycan maarifçiliyi elitar hərəkat deyildi. Onlar bütövlükdə cəmiyyətin maariflənməsini və tərəqqisini arzulayırdılar, elmin, biliyin, təhsilin təbliğinə çalışırdılar ki, bu da öz növbəsində ictimai rəyin – yeni sosiomədəni amilin yaranmasına təkan verə bilərdi.

Azərbaycan maarifçiliyini Avropa Maarifçiliyindən fərqləndirən və səciyyələndirən mühüm cəhət kimi "İslam Şərqi ilə olan təmas"ı qeyd olunur. Doğrudan da, Azərbaycan maarifçiliyinin İslam divan ədəbiyyatı ilə, klassik təsəvvüf ənənəsi ilə dialoqu kəsilməmişdir.

Azərbaycan maarifçiliyinə "Avropa gözü" ilə yanaşma yalnız maarifçilik dövrünü deyil, həm də bütövlükdə milli maarifçilik konsepsiyasının mahiyyətini təhrif etmiş olardı. Bütün etnik-

mədəni anlaşılmazlıqlara, ziddiyyətlərə baxmayaraq, XIX əsrdə “Rusiya diskursu” Azərbaycan maarifçiliyinin mühüm siyasi, ideoloji mədəni dəyərlərindən biri kimi çıxış etməyə başlayır. Onu da qeyd edək ki, bu zamandan başlayaraq Azərbaycan – rus mədəniyyətləri arasında dialoqun intensivləşməsi baş verir.

Ensiklopedik biliklərə malik olan A.Bakıxanov demək olar ki, dövrünün bütün elm sahələrində öz sözünü deməyə çalışmışdır. Bu böyük islam mütəfəkkiri Şərqlə yanaşı, rus və Avropa mədəniyyətinin başlıca istiqamətlərini mükəmməl bilirdi. Amma etiraf etməliyik ki, əslində Azərbaycan maarifçiliyi iki möhtəşəm ideya-məfkurə sütununun – Mirzə Fətəli Axundzadənin və Həsən bəy Zərdabinin üzərində bərqərar olmuşdur.

M.F.Axundzadənin “Təmsilatı” H.Zərdabinin “Əkinçi” qəzeti Azərbaycan maarifçiliyinin ən böyük mədəni dəyər hadisələridir.

Azərbaycan Maarifçiliyinin mahiyyətini təşkil edən **ağıl – bilik kultu** yalnız dövrün qnoseoloji idealı deyildi, həm də onun sosial imperativi idi. Ona görə də maarifçilər idrakın “yayılma zonasını” genişləndirmək yollarını arayırdılar, ideyaların sərbəst yayılması üçün yeni mədəni məkan sferalarını yaratmağı düşünürdülər.

“Düşüncə inqilabı”nın əsas təzahür formalarından biri də pedaqoji inqilab idi. Maarifçilikdə idrak (ağıl) kultu təhsil (məktəb) diskursunun zəruriliyini şərtləndirmiş oldu.

M.F.Axundzadə başda olmaqla maarifçi ədiblərimizin (A.Bakıxanov, M.Ş.Vazeh, S.Ə.Şirvani, S.M.Qənizadə, N.Vəzirov) yaradıcılığında təlim-tərbiyə məsələlərinin mərkəzində tərəqqi və inkişafın meyarı və məqsədi kimi elm kultu dayanır. Onların inamına görə şəxsiyyətin iç dünyasını və mənəvi dəyərlərini tərbiyə və təhsilin köməyi ilə qorumaq mümkündür.

Azərbaycan maarifçiliyinin düşüncə strategiyasında “tərbiyə” anlayışı elm, maarif, ədəbiyyat sahələrini də ehtiva edirdi.

Maarifçilərin yazdıqları dərsliklərdə, dərs vəsaitlərində tərbiyə məsələsi, didaktika əsas yer tuturdu. A.Bakıxanovun “Təhzibül-əxlaq” (əxlaqı islah etmək) pedaqoji-fəlsəfi traktatında təlim-tərbiyə ilə bağlı baxışları sistemləşdirilir.

Mirzə Fətəli Axundzadə tənqidin tərbiyəvi roluna inanmağı maarifçilik məfkurəsindən gəlirdi.

Təmsilatı "Türkcə" tərcümə edən Tehran sakini Mirzə Məhəmməd Cəfərə ünvanlı məqaləsində qeyd edirdi: *"Burda bədxahlıq yoxdur, təkcə irad tutmaq həmçinin tənqid vardır*[3].

Böyük maarifçi əmin idi ki, tənqidi ruhda yazılmış əsər müsəlman cəmiyyətinin əxlaqında və tərbiyəsində mühüm rol oynayacaq: *"Əgər inşallah, Kəmalüddövlənin məktubları nəşr edilərsə, mənim xalqım da tərbiyə və mərifət meydanına qədəm qoyar"*[4].

Xalqın maariflənməsi ideyası Həsən bəy Zərdabinin publisistik-qəzetçilik fəaliyyətinin ana xətti idi.

H.Zərdabi müsəlman toplumunda elmin, təhsilin önəmliliyini sübut etmək üçün peyğəmbər (s.ə.s.) sözünün nüfuzuna da istinad etməli olurdu: *"Çünki bizim peyğəmbərimiz müsəlmanlara elmül-əbdanı təhsil etməyə hökm edib"*[5].

H.Zərdabinin M.T.Sidqi, Ə.Topçubaşov, Ə.Ağaoğlu, M.Şahtaxtinski kimi dövrün tanınmış ziyalılarına və yazarlarına ünvanladığı məktublarda millətin maariflənməsi naminə bütün əli qələm tutanları birliyə dəvət edirdi.

C.Əfqani də Avropanın dünyəvi elmlərin sayəsində inkişaf etdiyini etiraf edirdi: *"Bütün dünyanı öz təsiri altında saxlayan Avropanı, Hindistanı zəbt etmiş ingilisi, Tunisi işğal etmiş Fransanı götürün. Bunlar nə ingilisin hünəridir, nə də fransızların. Bunlar ancaq onların elminin hünəridir"*[6].

Azərbaycan maarifçiliyinin aksioloji sistemində, təhsil diskursunda mühüm komponentlərdən biri də dil, "ana dili"

---

[3] Məmmədov, M. Azərbaycan ədəbi tənqidi. Müntəxəbat / M. Məmmədov. –Bakı: Tural-Ə NPM, –2002. –s.44

[4] Yenə oradan, s.45

[5] Zərdabi, Həsən bəy. "Əkinçi" 1875-1877 ( Tam mətni) Avrasiya Press B.-2005, s.114

[6] Qurbanov, Ş. Cəmaləddin Əfqani və türk dünyası / Ş.Qurbanov. –Bakı: Azərnəşr, –1996, –s.14

məsələləridir. Bir millətin, bir qövmün tarix səhnəsində varlığını saxlaması üçün öz ana dilinə sahib çıxması lazımdır.

M.F.Axundzadə də dilin təmizliyi məsələsinə toxunur. "Təmsilati-kapitan Mirzə Fətəli Axundzadə" kitabının ön sözündə alınma sözlərin xalq dilinə uyğunlaşdırılmasını məsləhət görürdü.

Dil və din H.Zərdabinin maarifçi düşüncə sisteminin aparıcı istiqamətləridir. Dil və dini cəmiyyətin iki mühüm sütunu hesab edirdi.

C.Əfqani - Millətdən kənarda səadət yoxdur, dilsiz də millət ola bilməz.

Maarifçilik dövründə təhsilin dəyər kimi fəlsəfi dərkinin aktuallığı maarifin dövlət, cəmiyyət və şəxsiyyət səviyyəsində ən vacib dəyər kimi əsaslandırılması ilə şərtlənir. Bir yandan, dövlət, cəmiyyət və şəxsiyyət təhsil tələbatını formalaşdırır, digər tərəfdən, mədəniyyət sferası da təhsilin inkişafından asılı olaraq dəyişir.

Azərbaycan maarifçiliyinin avropalaşma, müasirləşmə çağırışlarının mahiyyətində elm-təhsil dəyərləri dururdu. İslamın yeni dövrdə yüksəlişini də yalnız elmin inkişafı ilə əlaqələndirirdilər.

Azərbaycan maarifçiliyində dini düşüncədə "ağıl kultu"nun təbliği ilə yanaşı, "Ali Varlıq kultu" ilə əvəzlənməsi baş verir, islama qayıdış çağırışları güclənir.

M.F.Axundzadə kimi radikal düşüncəli bir mütəfəkkirin istəyindən asılı olmayaraq, feodal-patriarxal ölkədə insanların dünyagörüşünü dəyişmək mürəkkəb, təhlükəli və mümkünsüz iş idi. Maarifçilərimizin dini dünyagörüşünə həsr olunmuş bir araşdırmada qeyd olunur ki, guya maarifçilər tərəfindən allahın adının çəkilməsi, əksər hallarda sırf deist xarakter daşıyırdı.

XIX əsrin II yarısından başlayaraq, ədəbi-bədii yaradıcılıq sferasında dini diskursun fəallığı artmağa başlayır. *"Bu dövr ziyalılarımızın əksəriyyəti inanırdılar ki, dini inanclar və fəlsəfi dünyagörüşü baxımından öncə Qurana söykənmək və onu əldə bayraq etmək lazımdır. Xalqımızın XIX əsrdə İslama doğma münasibətinin*

*əsas səbəbi ulu əcdadlarının dini-fəlsəfi dünyagörüşləri ilə sonuncu səmavi Dinin ziddiyyət təşkil etməməsidir".*[7]

Məhz bu səbəbdən də XIX əsrdən başlayaraq ziyalılarımız İslamın sonradan ona olunmuş əlavələrdən təmizlənməsini istəmiş, Qurani-Kərimin ikiüzlü ruhanilərin buxovundan azad olunmasına çalışmışlar. Çünki Azərbaycan ziyalıları üçün İslam dini həm də onların milli mənəviyyatını ifadə edirdi.

Azərbaycan Maarifçilərinin İslam dininə münasibəti, demək olar ki, Maarifçilik fəlsəfəsinə həsr olunmuş bütün araşdırmaların əsas mövzusu olmuşdur.

Əgər sovet dövründə maarifçilikdə ateizm rüşeymlərinin, islam dininə qarşı mübarizə meyllərinin izi axtarırdılarsa, postsovet dövründə isə əksinə, XIX əsrə islami dəyərlərin intibahı kimi baxanlar da var.

Uzun illər boyu M.F.Axundzadənin ateizmindən bəhs edən tədqiqatçılar siyasi-ideoloji səbəblərdən məhz bu məqamın – mütəfəkkir yazıçının mübarizəsinin kökündə islamın daxilən yeniləşməsi məsələsinin üstündən sükutla keçmişlər.

Halbuki, M.F.Axundzadə "Kəmalüddövlə məktubları"nı (üçüncü məktub) heç də təsadüfi deyildir ki, məhz bu cümlələrlə tamamlamışdır: "*Bir də müəllif istəmir ki, xalq ateist olsun, dinsiz və imansız olsun*"[8].

M.F.Axundzadə bəzən az qala ateist kimi təqdim olunurdu. Hətta sosial şəbəkələrdə, mədəniyyət, ədəbiyat fonlu saytlarda onun "hansı yolun yolçusu" olduğunu aydınlaşdırmağa çalışırlar. Bir yandan, onu "müsəlmançılıqda möhkəm olan" bir insan kimi digər tərəfdən, islamın təməl dəyərlərini şübhə altına alan millətçi ideoloq kimi təqdim olunur.

Axundzadə Oğlu Rəşidin namaz qıldığını, bütün Ramazan ayı boyunca oruc tutduğunu, özünün ona mane olmadığını sevinclə

---

[7] Ələkbərov, F. XIX əsr Azərbaycan mütəfəkkirlərinin irsində islam dini və Qurani-Kərim // –Bakı: Dövlət və Din. –2016. -№ 42, –s.95.

[8] Cabbarlı, N. Mühacirət və klassik ədəbi irs / N.Cabbarlı. –Bakı: Elm, –2003, –s.64

bildirirdi: *"Rəşid bu il ramazan ayını başdan-başa bütün şərtləri və əməlləri yerinə yetirməklə oruc tutdu"*[9].

İslami dəyərlərə bütün yaşam fəlsəfəsi ilə sadiq olan mütətəfəkkirlərdən biri də Bakıxanovdur. O, bütün yaradıcılığı, dünyagörüşü, təlim-tərbiyəsi və ailə ənənəsi ilə böyük İslam sufi mədəniyyətinə, divan-təsəvvüf poeziyasına bağlı idi. Klassik İslam didaktikasını ("Təhzibi-əxlaq" ("Əxlaqın izahı") və "Nəsayeh" ("Nəsihətlər") yeni dövr maarifçiliyin əsas qaynaqlarından biri kimi qəbul edirdi. F.Qasımzadənin fikrincə, *"A.Bakıxanov köhnə alimlərdən fərqli olaraq, elmi dindən və sxolastikadan ayırdı: ona yeni məzmun, yeni üsul və ruh gətirdi"*[10]

Həm Şərqə, həm də Qərbə dərindən bələd olan C.Əfqani islam dünyasının geriliyinin səbəblərini yaxşı bilirdi. C.Əfqani Qurani-Kərimi anlamağın təqlidi yolunun ənənəvi təfsirdən qeyri-şərtsiz qəbul etməyin əksinə olaraq, ictihad yolunu – hər bir müsəlmanın azad surətdə Qurani-Kərimi anlayıb şərh etmək hüququnu təbliğ edirdi. Bununla da o, fərdi düşüncə tərzinin inkişafına güclü təkan verdi. Bu, o dövrdə islam dünyasında böyük iş idi. C.Əfqaniyə görə, *"İnsanın ilk tərbiyəsi onun dini tərbiyəsidir, fəlsəfi dünyagörüşü sonra yaranır"*[11]

H.Zərdabi Allaha, peyğəmbərə inanan, İslam dininə etiqad edən yüksək təhsilli və dünyagörüşlü müsəlman ziyalı idi. O, islamın inkişafını elmli, maarifpərvər müsəlmanların adı və fəaliyyəti ilə bağlayırdı. Böyük mütəfəkkir cəmiyyətin inkişaf formulunu dil və din-məzhəb amillərinin vəhdətində görürdü: *"Bu o deməkdir ki, hər bir tayfa elm öyrənərkən öz dilində, dinində həmçinin məzhəbində irəliləyiş etməlidir ki, dünyada sağ qalsın"*[12].

---

[9] Axundzadə, M.F. Əsərləri: [3 cilddə] / M.F.Axundzadə. –Bakı: Elm, –c.3. –1988. –s.237

[10] Qasımzadə, F. Abbasqulu ağa Bakıxanov. –Bakı: -Uçaq və gənclər ədəbiyyatı, –1956, –s.159.

[11] Əfqani, C. Seçilmiş əsərləri / C. Əfqani. –Bakı: Azərnəşr, –1998, –s.32

[12] Zərdabi, Həsən bəy. "Əkinçi" 1875-1877 ( Tam mətni) Avrasiya Press B.-2005, –s.440.

H.Zərdabi üçün din bir millətin varlığını şərtləndirən ən vacib dəyərlərdən biridir. "Dil və din" adlı məqaləsində millət üçün hər iki dəyərin zəruriliyini xüsusi vurğulayırdı.

Vətəndaş cəmiyyətinin və şəxsiyyətin formalaşması zamanı dini, mədəni və mənəvi dəyərlər müstəsna rola malikdir. Dini və mədəni dəyərlər cəmiyyətin yaşayış və iş mühitini formalaşdırmış olur. Mənəvi dəyərlər fərqli formalarda özünü göstərir. Bunlara elmi həqiqəti ifadə etmiş nəzəri müddəalar, əxlaq normaları, estetik dəyərlər həmçinin bədii zövq, dini inanc, ictimai rəyin müəyyən elementləri və s. daxil edilir.

Azərbaycan dini-mənəvi dəyərlərə malik bir ölkədir: istər dövlət siyasəti, istərsə də xalq mənəviyyatı səviyyəsində həmin dəyərlər qorunub saxlanılır.

Ulu Öndər Heydər Əliyev dövlət və din əlaqələrinin sivil prinsiplərə müvafiq şəkildə tənzimlənməsində, dini etiqad həmçinin vicdan azadlığının maneə olmadan təmin edilməsində, dini və mənəvi eyni zamanda əxlaqi və etik dəyərlərin cəmiyyətin ilkin həyat standartına çevrilməsində müstəsna xidmətlər göstərərək, bu sahədə çox böyük siyasi irs həmçinin dövlətçilik təcrübəsi qoyub.

A.Bakıxanov insan azadlığının mahiyyətini etik dəyərlər kontekstində anlayırdı. İnsan azadlığını, azad fəaliyyəti müəyyən ictimai-siyasi, əxlaqi qaydalarla tənzimlənməsini məqsədəuyğun sayırdı

Vicdan, dini etiqad azadlığı M.F.Axundzadədə "ruhani azadlıq" kimi təqdim edilir: *"Bizim ruhani azadlığımızı İslam dininin başçıları əlimizdən almış, bizi bütün ruhani işlərdə tamamilə öz əmr və nəhyələrinə tabe və alçaq kölə etmişlər"*[13].

C.Əfqani Avropanın təbliğ və bütün dünyaya təlqin etdiyi azadlıq ideyasının İslamın mahiyyətində mövcud olduğunu qeyd edirdi: *Quranın əsl ruhu azadlıqdır və müasir fikirlərə uyğundur.*

[13] Axundov, M.F. Bədii və fəlsəfi əsərləri / M.F.Axundov. –Bakı: Yazıçı, –1987, –s.221

*İndiki qanunsuzluğun İslam şəriəti ilə heç bir əlaqəsi yoxdur. Bunlar cahil və nadan təfsirçilərin İslama etdiyi əlavələrdir*[14].

Müasir Azərbaycan cəmiyyətində, toplumun düşüncə həyatında və ritual ənənəsində İslam dini sosial arxetip kimi öz funksionallığını, əhəmiyyətini saxlamaqdadır ki, bu da Azərbaycan xalqının mənəviyyat tarixi və mədəni təcrübəsi ilə sıx bağlıdır.

Yeni mədəni dəyərlər cəmiyyətin sosial inkişafını müəyyənləşdirən amillərdən biridi. Maarifçiliyin gərəkli mədəni dəyərlərindən biri də fəlsəfə elmi, xüsusən Avropa fəlsəfəsi idi. Fikirimizcə, elm və təhsil mədəniyyətin tərkib komponentləri olduğu üçün, fəlsəfəni də Avropa mədəni dəyəri kimi səciyələndirmək mümkündür.

Fəlsəfənin cəmiyyət üçün aktuallığına iki mütəfəkkirin (M.F.Axundzadə və Ş.C.Əfqani) məqalə və yazışmalarında xüsusi önəm verilir. Ona görə də biz əsasən onların fikirləri üzərində dayanırıq.

Bir şeyi diqqətdə saxlamaq lazımdır ki, hazırda Avropada aşkar formada etiraf edilsə də edilməsə də onların qazandığı nailiyyətlər zamanı fəlsəfi düşüncə tərzi böyük rola malikdir. Bütövlükdə sivilizasiya fəlsəfi fikir üzərində qərar tutubdur.

*Avropanın ikinci inkişafetmə dövrü Renessansda fəlsəfi fikrə qayıdışdan başlayır. Müasir dövrün bütün siyasi və hüquqi eyni zamanda mədəni və mənəvi dəyərlər sistemi həmçinin, demokratiya, insan haqları eyni zamanda beynəlxalq hüquq normaları da həmçinin fransız maarifçi filosoflarından o cümlədən Con Lokkdan və Kantdan qidalanırlar*[15].

Azərbaycan maarifçiləri arasında Mirzə Fətəli Axundzadə fəlsəfə (xüsusən Qərb fəlsəfəsi) bir yaradıcılıq sahəsi kimi daha çox maraqlandırırdı. O, müsəlman cəmiyyətinin problemlərinin həllini fəlsəfə diskursunda gerçəkləşməsində görürdü. M.F.Axundzadə

---

[14] Qurbanov, Ş. Cəmaləddin Əfqani və türk dünyası / Ş.Qurbanov. –Bakı: Azərnəşr, –1996, –s.206

[15] Qarayev, Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər [iki min ili tamamlayan iki yüz il] / Y.Qarayev. –Bakı: Elm, –2002, –s.325

demokratik dünyagörüşünün və özünüdərkin formalaşmasında fəlsəfənin əhəmiyyətini yaxşı anlayırdı. O, cəmiyyətdə elmi-təfəkkürün təşəkkülünü və inkişafını fəlsəfə elminin inkişafı ilə əlaqələndirirdi.

Araşdırmalara əsasən, böyük müəllif fəlsəfənin (Qərb fəlsəfəsi) anlayışlar sistemini başa düşməyə, vacib fəlsəfi kateqoriyaları izahına çalışmışdır.

Nümunə olaraq, “səbəb və nəticə” kateqoriyasının izah edilməsi üçün 18-ci əsr ingilis filosofu olan D.Yuma müraciət etmişdir:

Böyük mütəfəkkir Avropa fəlsəfə kursunun anlayışlarını (sivilizasiya, patriot, propres, filosof və s.) cəsarətlə dilimizə gətirir, bu anlayışların mənasını izah edirdi.

Qərb fəlsəfəsini yaxşı bilənlərdən biri də İslam maarifçiliyinin, “dindar maarifçiliyin” ən böyük nümayəndəsi olan C.Əfqanidir. İslam dünyasında islahatlar deyəndə “dindar maarifçilər” (Y.Qarayev) klassik İslamın və Quranın mənasız şərhlərdən, riyakar ruhanilərin yozumlarından təmizlənməsini nəzərdə tuturdu. Ümumiyyətlə, “həqiqi islama” inanan maarifçi yazıçılar üçün isə məqsəd dinin və Quranı müasirləşdirmək deyildir, bəlkə, əksinə, cəmiyyəti müasirləşdirmək üçün dinin və Quranın cəmiyyətdə təsir gücündən istifadə etmək idi” .

C.Əfqani islam dünyasında islahatlar aparmaq üçün “yasaq edilmiş fəlsəfənin və elmi metodların” öyrənilməsinin vacibliyini qəbul edirdi və belə qənaətə gəlirdi ki, məktəblərdə fəlsəfə elminin tədrisi olmadan ölkənin tərəqqisi mümkünsüzdür.

C.Əfqani dinlə fəlsəfəni bir-birindən ayırırdı, onların bir araya gəlməsini mümkünsüz hesab edirdi: Dinlər hansı adı daşıyırlarsa daşısınlar, hamısı bir-birinə bənzəyir. Dinlə fəlsəfə arasında heç bir anlaşma və barışma mümkün deyildir. Din insana inam və inanc təlqin edir.

Azərbaycan maarifçiliyi Avropanın uğurlarını tərifləməklə İslam hümmətindən olanları qətiyyən aşağılamırdı, Avropa və Şərq-müsəlman dünyasını qarşı-qarşıya qoymurdu, sadəcə Şərqin Qərbdən geridə qalmasının səbəbini maarifsizlikdə görürdülər. Onların

mədəniyyət aləmində geriyə qalmasının səbəbi ancaq maarif və sənətləri öyrənmək vasitəsinin yoxluğudur.

Azərbaycan maarifçiliyinin cəmiyyətə ismarladığı əsas Avropa dəyərlərindən biri də azadlıq ideyası idi. Yalnız azadlıq olan yerdə insanlara cəmiyyəti geriyə atan streotiplərin, mənasız dini ehkamların saxtalığını və gərəksizliyini göstərmək, yaxud sübut etmək olur.

Axundzadənin maarifçilik fəlsəfəsini "azadlıq fəlsəfəsi" kimi səciyyələndirmək olar.

Azərbaycan maarifçiliyi Avropadan öyrənmək təşəbbüsü ilə əslində multikultural prinsipi – başqa mədəni təcrübələrin dəyərlərini nəzərə almaq, onları öyrənmək və dialoq aparmaq "təmayülünü ön plana çıxardır". Fərqli mədəni təcrübələrin dəyərləri ilə "dil tapmaq", bu dəyərləri Şərq – müsəlman təcrübəsinə qazandırmaq istəyi Azərbaycan maarifçiliyi üçün dialoq problemini zəruri edirdi. "Dialoq fərqli mədəni təcrübələrin qorunaraq saxlanılmasına həmçinin inkişaf etdirilməsinə istiqamətlənmiş qurucu bir fəaliyyət hesab edilir.

M.F.Axundzadə, A.Bakıxanov, H.Zərdabi, C.Əfqani, S.Ə.Şirvani kimi maarifçilər Şərqi "monoloq diskursu"ndan qurtarmağın yollarını məhz Qərblə dialoqun gerçəkləşməsində görürdülər. Azərbaycan maarifçiləri Şərq-Qərb münasibətlərinə daha çox elmi-mədəni dəyərlər və içtimai, mədəni tərəqqi ideyası müstəvisində yanaşırdılar. Çünki hər bir mədəniyyət yalnız dialoq səviyyəsində mövcud ola bilir və inkişaf edə bilir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın gedişində Azərbaycan Maarifçiliyi humanitar fikir tariximizdə aktual mövzu olmaqla yanaşı, geniş və şərəfli araşdırma tarixinə malikdir. Amma bu sahədə həllini gözləyən məsələlər mövcuddur.

Marifçilik yalnız ictimai-sosial, mədəni-ədəbi hadisə deyil, həm də aksioloji paradiqmanın təşəkkül tapmasıdır. Maarifçilik məfkurəsi özündə bir neçə dəyər diskurslarını – maarif, islam, dil diskurslarını və s. birləşdirir.

Təhsil, tərbiyə, elm XIX əsr Azərbaycan mədəniyyətinin formalaşdıran təməl dəyərlərdir. Məhz bu təməlin üzərində digər

dəyərlər təşəkkül tapır.Təhsil və din başqa mədəni dəyərləri də (dil, azadlıq və s.) özündə birləşdirir.

Fikir və söz azadlığı kimi vacib dəyərlərin, yeni təhsil-tərbiyə təcrübəsinin formalaşmasından asılı olması gündəmə gəlir. Maarif dəyər diskursunun təbliğində "Əkinçi" qəzeti mühüm rol oynayır.

Məhz maarifləndirmə ideyası cəmiyyətdə dinə olan münasibətlərə də aydınlıq gətirir. İslam diskursu maarifçiliyin əsas ideoloji xəttini, mədəni dəyərlər sistemini müəyyənləşdirir, din-elm, ənənə-müasirlik, tərəqqi-tənəzzül, Şərq-Qərb semiotik qarşıdurmaları əsasında aktuallaşdırır.

İslam diskursu, yaxud dini dəyərlərə, bütövlükdə dinin özünə tənqidi münasibət maarifçilik ideologiyasının prioritet istiqamətini təşkil edir. Bu problem sovet və postsovet dövrü Azərbaycan ədəbiyyatşünaslığında və fəlsəfəsində fərqli səviyyələrdə öyrənilmişdir. M.F.Axundzadə, A.Bakıxanov, H.Zərsabi, Ş.C.Əfqani kimi mütəfəkkirlər İslam dininin müsəlman Şərqində tarixi rolunu və funksiyasını mükəmməl dərk edirdilər.

Maarifçilər ədəbi tənqid və fəlsəfə, mətbuat kimi mədəni təcrübələri cəmiyyətdə fikir və söz azadlığının yaranmasını şərtləndirən vacib amillər hesab edirdilər.

Azərbaycan maarifçiliyinin mədəni dəyərlər sisteminin formalaşmasında Avropa fəlsəfi fikrinin rolu danılmazdır. Avropa ədəbi publisistik janrları ilə (roman, dram, ədəbi-tənqid) yanaşı, fəlsəfə də yeni bədii -estetik və ideoloji təfəkkürü formalaşdıran dəyərlərdən biridir. Buna görə də Azərbaycan maarifçiliyinin iki böyük nümayəndəsi – Mirzə Fətəli Axundzadənin və Şeyx Cəmaləddin Əfqaninin fəlsəfə elmi ilə bağlı fikirləri ümumiləşdrilir.

Maarifçilik dəyərləri müasirlik kateqoriyası kontekstində nəzərdən keçirilir ki, bu da dəyər prinsiplərinin xarakterininin və aktuallığını səciyyələndirməyə imkan verir. Müasir vətəndaş cəmiyyəti özünü maarifçilik "güzgü"sündə görməyə cəhd edir. Qloballaşan dünyada dini və mədəni dəyərlərin aktuallaşması Azərbaycan maarifçilərin irsinə yeni nəzəri-metodoloji aspektdə nəzərdən keçirilməsini şərtləndirir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Behbudov, S.E. XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətində islam diskursu. Sumqayıt Dövlət Universitetinin Elmi Xəbərləri. Sosial və humanitar elmlər bölməsi. –Sumqayıt: –2014. №1. –s.57-61.
2. Behbudov, S.E. Tarixi kökümüz və əxlaqi-mənəvi dəyərlər. IV İnternational Sxientific conference of young researchers. Qafqaz universiteti. Proceedings. –Bakı: –2016. –29-30 aprel –s.1451-1452.
3. Behbudov, S.E. Azərbaycan Xalq Cümhuriyyəti aksioloji sistemində "Cümhuriyyət" anlayışının yeri. Müsəlman Şərqində ilk parlamentli respublika. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. –Bakı: –2018. –21-23 may. –s.705-708
4. Behbudov, S.E. Особенности развития национальной просветительской идеи в Азербайджане. Национальный педагогичный университет им.М.П.Драгоманова видавництво «Гилея». –Киев: –2019. №4. –s.18-20
5. Behbudov, S.E. XIX əsr Azərbaycan ədəbi dilində fəlsəfi terminlər və anlayışlar (M.F.Axundzadə irsi əsasında). Elmlərarаı inteqrasiya: linqvodidaktik, linqvokulturoloji və psixolinqvistik aspektlər. Beynəlxalq elmi konfrans. –Sumqayıt: –2019. –19-20 dekabr. –s.513
6. Behbudov, S.E. Религия в Азербайджанской философской мысли XIX века (на материале творчества Азербайджанских просветителей А.А.Бакиханова и М.Ф.Ахундова). Современная наука: актуальные проблемы теории и практики. Научно-практический журнал. –Москва: –2020. №3. –s.93-96.
7. Behbudov, S.E. On the issue of the peculiarities of the Azerbaijani enlightenment. European scientific discussions. Abstracts of II international scientific and practical conference. Roma. –2020. –26-28, –s.514-519.

8. Behbudov, S.E. Mirzə Fətəli Axundzadənin yaradıcılığında fəlsəfə mədəni dəyər kimi. Geostrategiya. Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal. –Bakı: –2021. №03 (63). –s.193-197.

9. Behbudov, S.E. Təhsil və tərbiyə kultu maarifçilik dövrünün vacib dəyəri kimi. Geostrategiya. Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal. –Bakı: –2021. №04 (64). –s.159-163

10. Behbudov, S.E. Mirzə Fətəli Axundzadənin fəlsəfi düşüncələri kontekstində maarifçilik ideyalarına dair. Bakı Avrasiya Universiteti. Sivilizasiya elmi-nəzəri jurnal. –Bakı: –2021. №2 (47). –s.41-45.

11. Behbudov, S.E. Mirzə Fətəli Axundzadənin aksioloji sistemində fəlsəfənin yeri. Geostrategiya. Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal. –Bakı: –2021. № 5 (65). –s.157-160.

12. Behbudov, S.E. Maarifçilik ideologiyasının formalaşmasında Avropa dəyərlərinin rolu(M.F.Axundzadənin və Şeyx Cəmaləddin Əfqaninin fəlsəfi görüşləri əsasında). Dövlət və din. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi. –Bakı: –2021. № 3 (70). –s.67-74.

13. Behbudov, S.E. Azərbaycan Maarifçiliyinin dini dəyərləri və müasirlik. Metafizika. Beynəlxalq Metafizika Mərkəzi. –Bakı: –2021. №4. Seriya-16. –s.163-17



Dissertasiyanın müdafiəsi "28" "iyun" "2024" -cü il tarixində saat 14⁰⁰-da Azərbaycan İlahiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 4.03 Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1065. Bakı şəhəri, Məhəmməd Naxçıvani 29.

Dissertasiya ilə Azərbaycan İlahiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyası Azərbaycan İlahiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "27" "may" "2024" -cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 27.05.2024
Kağızın formatı:A5
Həcm: 37392
Tiraj: 100